# ƏSRİN FACİƏSİ

Bəşər tarixində bir çox müharibələr baş vermiş, çoxlu sayda insan tələfatları olmuşdur. Təəssüflər olsun ki, 80-ci illərin sonlarında Azərbaycanımız da elan olunmamış müharibəyə cəlb edildi. Mənfur ermənilər özlərinin xaç atalarının birbaşa dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edə bilmişdilər. Əbədi-əzəli Vətənimiz olan Qərbi Azərbaycandan insanları ağlasığmaz işgəncələr verməklə vəhşicəsinə öz vətənlərindən qovmağa nail oldular. Lakin bununla kifayətlənmədilər.

Qeyd etmək lazımdır ki, 200 ildir ki, soysuz, heç bir yerdə vətəni olmayan ermənilər bu iyrənc siyasəti həyata keçirərək etnik təmizləmə, soyqırımı siyasətini zaman-zaman həyata keçiriblər. Azğınlaşmış ermənilər sağlam düşüncəli insanların ağlına gətirmədiyi vandallığı, vəhşiliyi törətdilər. Hazırda Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı və qeyri-millətin nümayəndəsi yaşamır. Dünya birlikləri isə ermənilərin bu əməllərinə daima susqunluq nümayiş etdirmişlər.

Ermənilərin törətdikləri vəhşiliklərin içərisində ən dəhşətlisi dünyada analoqu olmayan Xocalı faciəsi oldu. Xocalı faciəsini törətməkdə ermənilərin məqsədi azərbaycanlıların kompakt yaşadıqları Xocalı şəhərini ələ keçirmək, bu strateji məkanı tamamilə yer üzündən silmək oldu. Çünki Xocalı qədim tarixə malik, Azərbaycanın qədim və müasir mədəniyyətini özündə cəmləşdirmişdi.

Xocalıda Azərbaycanlıların hələ qədimdən yaşamasını sübut edən bir çox məişət əşyaları və digər tarixi abidələr mövcud olmuşdur. Vəhşiləşmiş ermənilər ən qədim qəbiristanlıqlardan olan Xocalı qəbiristanlığını texnikalar vasitəsilə tamamilə dağıdaraq heç bir iz qoymadılar.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri 70 il tərkibində yaşadığımız və inandığımız keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının zirehli texnikaları və şəxsi heyətinin köməkliyi ilə əliyalın, günahsız, dinc əhalinin yaşadığı Xocalı şəhərinə hücuma keçdilər. Zavallı insanlar meşələrə qaçmaqla canlarını qurtarmağa çalışdılar. Ancaq meşədə daha ağır müsibətlərlə rastlaşdılar. Meşələrdə gizlənmiş, vəhşiləşmiş, bütün insani hisslərdən uzaq olan erməni-rus birləşmələri xocalılılara divan tutdular. Qoca, qadın, uşaq, hamilə qadınlar, bir sözlə qarşılarına çıxan hər kəsi işgəncələr verərək qətlə yetirdilər. XX əsrin ən dəhşətli faciəsini həyata keçirdilər. 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdilər.

Qeyd etmək lazımdır ki, Xocalı faciəsi zamanı istifadəsi qadağan olunmuş silahlardan istifadə olunmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin zamanlarda özlərini sülh carçısı kimi qələmə verən beynəlxalq təşkilatlar baş verən bu faciəyə heç bir reaksiya vermədilər. Ulu öndər Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə gəldikdən sonra faciəyə siyasi qiymət verildi. Bu barədə Heydər Əliyev demişdir ki, 1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik.

Xocalı faciəsi hər bir azərbaycanlının qan yaddaşına həkk olunmuşdur. Bakı şəhərində, eləcə də respublikanın digər şəhər və qəsəbələrində Xocalı qurbanlarının xatirəsinə abidələr ucaldılmışdır. Hər il 26 fevral tarixində minlərlə insan Bakı şəhərindəki "Ana harayı" abidəsinin önünə gül-çiçək dəstələri qoyaraq həlak olanların xatirəsini yad edirlər.

Dövlətimizin başçısı İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında qətiyyətli addımlar atır. Xocalı faciəsinin bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırılması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın böyük əməyi vardır. Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası keçirilir. Kampaniyanın keçirilməsində məqsəd Xocalıda törədilmiş bəşəri cinayətin bütün dünyaya çatdırılması və faciəyə hüquqi-siyasi qiymətin verilməsinə nail olmaqdır.

44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz 30 il ərzində işğal altında qalan müqəddəs yerlərimizi işğaldan azad etdi. Şəhidlərimizin, eləcə də Xocalı qurbanlarının qisası alındı.

Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib. Biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik. Özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi siyasi rəhbərliyi cinayətkarlardır və bu cinayətkarları cəzalandıracağıq".

**Samirə KAZIMOVA,**
**Şəmkir rayon Kür qəsəbə xəstəxanasının baş həkimi, YAP-ın üzvü.**